**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏKTƏBLİLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNDƏ AZƏRBAYCAN ORDUSUNUN TARİXİ NAİLİYYƏTLƏRİNDƏN İSTİFADƏNİN İMKAN VƏ YOLLARI

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Pərviz Rəşad oğlu Allahverdiyev**

Fəlsəfə doktoru elmi
dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Naxçıvan – 2025**

Disertasiya işi Naxçıvan Dövlət Universitetinin "Pedaqogika və psixologiya" kafedrasında yerinə yetirilmişdir

Elmi rəhbər: Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Rəsmi opponentlər: Pedaqoji elmlər doktoru, professor
**Fərrux Abbas oğlu Rüstəmov**

Pedaqogika üzrə fəlsəfə doktoru
**Göyçək İspəndiyar qızı Pirverdiyeva**

Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Nəzakət Rəsul qızı Yusifova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutunun nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Pedaqoji elmlər doktoru, professor
**İsmayıl İsrafil oğlu Əliyev**

Dissertasiya şurasının elmi katibi: Pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**Qızıltac Tarverdi qızı Şahbazova**

Elmi seminarın sədri: Pedaqoji elmlər doktoru, professor
**Ləzifə Nağı qızı Qasımova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Bu gün tariximizin elə bir mərhələsini yaşayırıq ki, cəmiyyətimiz üçün, xalqımız üçün vacib olan Azərbaycan məktəblisinin qarşısında böyük bir məsuliyyətin olduğunu pedaqoji kollektiv başa düşməli və lazımi addımları atmalıdır. Müstəqillik qazanmış respublikamızın ümumtəhsil məktəblərində yetişən şagirdlərdə vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması və inkişafı mühüm əhəmiyyət kəsb edir. Bu ona görə əhəmiyyətlidir ki, çox da uzaq olmayan bir dövrdə gənclərdə sovet vətənpərvərliyi, sovet ideologiyası ilə hazırki müstəqil Azərbaycan vətənpərvərliyi, o cümlədən hərbi vətənpərvərliyi üst-üstə düşə bilməz. O dəyişməli və yenilənməlidir. Digər tərəfdən, günü-gündən çiçəklənən, qüdrətlənən Azərbaycan dövləti və onun ordusu, həm mənəvi baxımdan, həm də siyasi baxımdan dünya miqyasında tanınmaqla vətənpərvər məktəblilərin yetişməsinə şərait yaradılmışdır.

Son illər ölkəmizin ordu quruculuğunda qazandığı nailiyyətlər, atdığı addımlar, xalqımızın keçmişinə ehtiram, qəhrəmanlıq tarixinə hörmət hissi tərbiyə etmək məqsədi ilə orta təhsil müəssisələrində muzeylər, guşələr, stendlər yaradılmış və onların pedaqoji imkanlarıdan geniş istifadə edilir.

Bu çox mühüm vəzifələrin həlli baxımından hərbi vətənpərvərlik tərbiyəsi işinin formalaşdırılması ümumtəhsil məktəbləri qarşısında duran ən mühüm tələblərdəndir. Belə bir tələbin uğurla nəticələnməsi üçün görüləcək işlər ailədən başlamalı və ümumtəhsil məktəblərində sistemli şəkil almalıdır. Məktəblilərə hərbi vətənpərvərlik tərbiyəsi işinin aşılanması ibtidai siniflərdən başlayır, təlim, dərsdənkənar, sinifdənxaric işlərin aparılması ilə sonrakı illərdə təkmiləşərək formalaşır.

Müasir mərhələdə hərbi vətənpərvərlik tərbiyəsi işi bacarıqlı, işgüzar, çevik, hərbi peşəyə, orduya maraqlı vətənpərvər məktəblilərin yetişməsinə xidmət edir. Hərbi vətənpərvərlik tərbiyəsi hər şeydən əvvəl istər məktəblilərin, istərsə də yeni nəslin vətəndaşlıq borcunun yerinə yetirilməsi, xalqına, vətəninə, torpağına bağlılığı gələcəkdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarında xidmət etməyi bacarmaq, müasir silah-sursat, texnika haqqında məlumat almaq, vətənə məhəbbət, düşmənə isə hər zaman nifrət hissi

duymaq və s. kimi xüsusiyyətləri özündə birləşdirmək deməkdir. Ən əsası budur ki, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun, onun silahlı birəşmələrinin və bu orduya, silahlı qüvvələrə rəhbərlik edən tarixi sərkərdə ulu öndər Heydər Əliyev, hazırkı dövrdə isə Müzəffər Ali Baş Komandan İlham Əliyev kimi əvəzsiz xidmətləri və tarixi qələbələri olmuş qəhrəmanların başçılığı ilə qazanılan uğurlardan istifadə gənc nəslin tərbiyəsinin mühüm aktual məsələsi kimi qarşıda durur.

Müasir dövrümüzün orta təhsil müəssisələrində formalaşan yeni və gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsinin inkişafına, Azərbaycan ordusunun tarixi nailiyyətlərinin qorunub saxlanılmasına dair bir çox işlərin tətbiq olunması vacib sayılır. Ona görə də orta təhsil müəssisələrində məktəblilərin bir başa hərbi vətənpərvərlik tərbiyəsinə kömək edən fənlərin tədrisi xüsusi əhəmiyyət daşıyır.

Bu fənlərə misal olaraq "Azərbaycan tarixi", "Zəfər tarixi", "Ədəbiyyat", "Çağırışaqədərki hazırlıq", "Fiziki tərbiyə" fənnlərini göstərə bilərik. Bu fənlərin köməyi ilə haqqında danışdığımız problemin həlli baxımından yaxşı nəticələr əldə etmək olar. "Azərbaycan tarixi", "Ədəbiyyat", "Çağırışaqədərki hazırlıq" fənnlərini öyrədən müəllimlərin köməyi ilə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsi, onlara Azərbaycan ordusunun tarixi nailiyyətlərinə hörmət bəsləməyi aşılanmlı, elmi-pedaqoji və metodiki baxımından vacib aktuallıq meydana çıxarır.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (2009) orta ümumtəhsil məktəktəbliləri üçün qoyulan tələblər içərisində məktəblilərin vətənpərvərlik tərbiyəsi ilə bağlı bir çox maddələr mövcuddur. Onlardan birində deyilir ki, *"məktəblilərin milli mənlik şüurunun inkişaf etdirilməsi, onlarda vətənpərvərlik hisslərinin yüksəldilməsi istiqamətində dövlətimiz müntəzəm olaraq addımlar atır, müvafiq sənədlər, dövlət proqramı qəbul edir. Eyni zamanda qanunvericilik aktlarının təkimləşdirilməsi bu istiqamətdə layihələrin həyata keçirilməsi gənclərin vətənpərvər ruhda tərbiyə olunmasına öz müsbət təsirini göstərir."*[1]

Tədqiqat probleminin aktuallığını əsaslandıran amillərdən biri

[1] "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. // – Bakı: Hüquq ədəbiyyatı, – 2009. – 80s.

də ölkəmizdə uğurla həyata keçrilən Milli kurikuluma xas olan sənədlərdə məktəblilərin hərbi vətənprvərlik tərbiyəsi ilə bağlı vacib hesab olunan tövsiyələrin verilməsidir. Milli kurikuluma dair sənədlərdə göstərilir ki, "Çağırışaqədərki hazırlıq" fənni üzrə məktəblilər öz üzərlərinə düşən vəzifəni bilməlidirlər. Çünki "Çağırışaqədərki hazırlıq" fənninin öyrədilməsində şagirdlərdə Vətənə məhəbbət hissinin formalaşdırılması mümkün sayılır.

Bu gün istər ibtidai sinif müəllimləri, istərsə də tarix məllimləri, ümumiyyətlə məktəbin pedaqoji kollektivi qarşısında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasında mühüm vəzifələr durur. Müəllim kollektivi Azərbaycan ordusunun keçmişdə və bu gün qazandığı nailiyyətləri bilməli və öz işində şagirdlərə bunu aşılamağı bacarmalıdır. Şagirdlər arasında Azərbaycan ordusunun tarixi nailiyətlərinin təbliğ olunması, hərbi vətənpərvərlik

tərbiyəsinin formalaşdırılması pedaqoji kollektivin qarşısında duran vacib məsələdir. Çünki bu sahədə hər zaman davamlı nəticə, yüksək nailiyyət əldə etmək məqsədi ilə iş aparmadan məktəbliləri vətənpərvər vətəndaş kimi tərbiyə etmək olmaz.

Azərbaycan ordusunun tarixi nailiyyətləri, qələbələri, qazandığı uğurlar yetişən nəslin hərbi vətənpərvərlik tərbiyəsində əsas yolu olmalıdır. Belə ki, ulu öndər Heydər Əliyev 13 oktyabr 1999-cu ildə Naxçıvanda C.Naxçıvanski adına hərbi liseyin açılış mərasimində demişdir: *"Azərbaycan ordusunun və xalqının tarixi nailiyyətləri, döyüş ənənələri, ədəbi - bədii sərvətləri, tarixi salnaməsi bizim gənc nəslimizin, yeni nəslimizin, azyaşlı məktəblilərimizin hərbi bilik və bacarıqlarının, o cümlədən hərbi vətənpərvərlik tərbiyəsinin inkişafında, formalaşmasında və təkmiləşdirilməsində müstəsna əhəmiyyəti olmuşdur və olacaqdır".*[2] Ulu öndərin yuxarıda dediklərini əsaslı və məqsədyönlü şəkildə məktəblilərə aşıladıqda, o zaman yetişən nəslin vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsindən söz aça bilərik.

Ümumiyyətlə, ibtidai sinif şagirdlərində də vətənpərvərlik tərbiyəsinə maraq və meylin göstərilməsi azlıq təşkil etmir. Müəllim tərəfindən aşılanan vətənpərvərlik mövzulu şeirlər, nağıllar, mahnılar,

---

[2] Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 ciliddə] / H.Əliyev. – Bakı: Azərnəşr. – c.22. – 2007. – 528 s

inşalar, rəsmlər və s. verməklə və öyrətməklə onlarda bu hissin zənginləşməsinə səbəb ola bilər.

Hərbi vətəpərvərlik tərbiyəsi işində ona nail olmaq lazımdır ki, məktəblilər Azərbaycan ordusunun, xalqının, millətinin qazandığı nailiyyətlər, şanlı qələbələr bunların qazanılmasında qəhrəmanlıq göstərmiş sərkərdələri, qəhrəmancasına şəhid olmuş Milli Qəhrəmanlarımızın onların peşə yolundan, döyüş yolundan aldığı örnəklərlə əhatəli biliklərə yiyələnsinlər. Mövzumuz həm də bu baxımdan akualdır.

Qeyd edək ki, Azərbaycan ordusunun qazandığı nailiyyətlər sayəsində məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi məsələsində ölkəmizin ümumtəhsil müəssisələrində təcrübələr əldə olunmuşdur. Amma buna baxmayaraq bu sahədə aparılan araşdırmaların müasir dövrümüzün istək və tələblərinə, təhsil islahatlarının qarşıya qoyduğu göstəricilərə tam cavab verdiyi qənaətinə gəlmək olmaz. Azərbaycan ordusunun tarixi nailiyyətləri əsasında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması probleminin hərtərəfli və geniş araşdırılmasına ehtiyac vardır.

Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi məsələlərindən bir çox tədqiqatçı alimlər bəhs etmişdir. X.Q.Fətəliyev, Ə.Ə.Mustafayev, F.A.Rüstəmov, D.Q.Quliyev, Y.M.Babanlı, A.N.Qurbani, İ.B.Əsgərov, M.Ə.Nəsurullayev, Y.Məmmədov, F.A.Əliyev, E.S.Əliyev və başqaları məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin inkişafı ilə bağlı tədqiqatlar aparılmış, pedaqoji elmin qarşısında duran çox mühüm vəzifələrdən biri kimi problemin həlli yollarını tapmaqla müəyyən nəticələrin əldə edilməsinə səy göstərmişlər. Araşdırdığımız problemin bu və ya digər cəhətlərinə dair məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı son illərin dissertasiya işlərinə də rast gəlirik. Lakin bu tədqiqat işlərində, həm Azərbaycan ordusunun tarixi nailiyyətləri əsasında hərbi vətənpərvərlik tərbiyəsi məsələlərinə toxunulmamış, həm də problemin həlli yolları və imkanları tədqiqat obyekti olmamışdır.

Eyni zamanda, hərbi vətənpərvərlik tərbiyəsi mövzusunda kitablar, vəsaitlər, məqalələr yazılsa da Azərbaycan ordusunun tarixi nailiyyətlərində hərbi vətənpərvərlik tərbiyəsi yolları haqqında ayrıca tədqiqata rast gəlmirik. Araşdırdığımız tədqiqat istiqamətinə uyğun,

lakin kommunist ideologiyası çərçivəsində hazırlanmış dissertasiyalar da vardır. Onlardan X.Q.Fətəliyevin "Məktəblərdə hərbi vətənpərvərlik tərbiyəsi işi" adlı dissertasiyası olsa da, məsələyə çağdaş prizmadan yanaşılmasına ehtiyac duyulur.

Tədqiqat işində şagirdlərin hərbi dərslərdə, tarix dərslərində və digər fənlərin tədrisi prosesində vətənpərvərlik hisslərinin gücləndirilməsi, qarşıya qoyulan məqsədə nail olmaq üçün tarixi şəxsiyyətlərin döyüş yoluna, sərkərdəlik bacarığına və ordumuzun qazandığı naliyyətlərə istinad edilmişdir.

Hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, Azərbaycan ordusunun tarixi nailiyyətlərinin sərgilənməsində kütləvi tədbirlərin, maarifləndirmə və təbliğat işlərinin rolu məktəblilərin hərbi, əxlaqi, fiziki, psixoloji hazırlığının təmin olunmasına, onlarda doğma vətənə bağlılıq hissinin formalaşdırılmasına yönəldilmişdir.

Beləliklə, problemin aktuallığı, onun nəzəri cəhətdən kifayət qədər işlənilməməsi bizim tədqiqatın mövzusunun aşağıdakı kimi seçilməsini şərtləndirdi: "Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun tarixi nailiyyətlərindən istifadənin imkan və yolları".

**Tədqiqatın obyekti:** Ümumtəhsil məktəblərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti:** Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşmasında Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin imkan və yollarının müyyənləşdirilməsidir.

**Tədqiqatın məqsədi.** Ümumtəhsil məktəblərində Azərbaycan ordusunun tarixi naliyyətlərindən istifadə etməklə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işinin sistemli, əhatəli işləyib hazırlamaq və ondan təlim prosesində, dərsdənkənar tədbirlər zamanı istifadə etməyin imkanları, yol və vasitələrini müəyyənləşdirməkdir.

**Tədqiqatın vəzifələri.** Mövzu ilə əlaqədar olaraq qarşıya qoyulan məqsədin həlli üçün aşağıdakı vəzifələrin yerinə yetrilməsi nəzərdə tutulmuşdur:

– Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işinin əhəmiyyəti və məzmununu müəyənləşdirmək;

– Hərbi vətənpərvərlik tərbiyəsinə dair elmi-pedaqoji

ədəbiyyatı problem baxımından təhlil etmək;

–Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasında Azərbaycan ordusunun keçmiş və indiki tarixdə qazandığı nailiyyətlərin hansı tərəflərindən və necə istifadə edilməsini aşkar etmək;

– Məktəblilərin təlim prosesində, eləcə də dərsdənkənar tədbirlər zamanı şagirdlərə hərbi vətənpərvərlik tərbiyəsi üzrə aparılan işlərin imkan və yollarını müəyyənləşdirmək;

– Hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun tarixi nailiyyətlərindən istifadənin pedaqoji imkanlarını müəyyən etmək;

– Azərbaycan ordu quruculuğunda Heydər Əliyevin tarixi xidmətlərini mövzu baxımından ümumiləşdirmək;

– Təlim prosesində və dərsdənkənar məşğələlər zamanı şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin səmərəli təşkili yollarını müəyənləşdirmək;

– Tədqiqatın nəticələrinə əsasən Azərbaycan ordusunun tarixi nailiyyətləri nümunəsində hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasına dair tövsiyələr hazırlamaq.

**Tədqiqatın metodları.** Tədqiqatda qoyulan məqsəd və vəzifələrin həlli yollarına nail olmaq üçün aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

Nəzəri təhlil. Təhlil olunan məsələ ilə bağlı elmi-pedaqoji ədəbiyyat, dərslik və dərs vəsaitləri mövzu baxımından təhlil edilmiş, ədəbiyyat toplanıb öyrənilmiş, məktəblilərin imkanlarının meyarları müəyyənləşdirilmiş, bu meyara uyğun olaraq diaqnostik material işlənib hazırlanmışdır.

Pedaqoji müşahidə, pedaqoji müsahibə və anket sorğusu. Problemi öyrənmək üçün şagirdlər, valideyinlər, müəllimlər və məktəb rəhbərlərindən müsahibə, anket sorğusu metodları ilə faktlar və məlumatlar toplanılmışdır. Nəzəri və praktik yekunların formalaşdırılması, üsullarından istifadə edilərək fərziyənin müddəaları möhkəmləndirilmiş, ümumiləşdirilmiş və sistemə salınmışdır.

**Müdafiəyə çıxarılan müddəalar** tədqiqatın əsas nəticələrinin

yekununu əks etdirir, bu da müasir şəraitdə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinə bir sistem kimi yanaşmağı əhatə edir. Onlar aşağıdakılardan ibarətdir:

1. Məktəblərdə Azərbaycan ordusunun tarixi nailiyyətlərinə dair materiallardan istifadə şagirdlərin milli, əxlaqi, hərbi bilik, bacarıq, vərdişləri və dəyərləri mənimsəməsi prosesinə təsir edir. Öz vətəninə, xalqına, doğma dilinə, mütərəqqi adət-ənənələrinə münasibət formalaşdırılması, ümumbəşəri dəyərlərə yiyələnməsi şagirdlərin yüksək vətəndaşlıq və hərbi vətənpərvərlik keyfiyyətlərinin təminatçısıdır.

2. Azərbaycan ordusunun tarixi nailiyyətləri haqqında dərs zamanı və dərsdənkənar tərbiyə işlərində müxtəlif mənbələrdən götürülmüş tarixi faktların, məlumatların verilməsi məktəblilərin vətənpərvərlik və hərbi vətənpərvərlik, yurdsevərlik və s. kimi mənəvi keyfiyyətlərə yiyələnməsinə və formalaşmasına əhəmiyyətli təsir göstərir.

3. Azərbaycan ordusunun tarixi nailiyyətlərindən istifadə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini elmi-nəzəri baxımdan əsaslandırılır, onun pedaqoji imkanları məktəblilərin cəsur, hərbi bilik və bacarıqlı, dözümlü, yenilməz və təlim prosesinə təsir göstərən çox mühüm iş kimi müəyyənləşdirilir.

4. Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin təlim prosesində formalaşdırılmasının səmərəlilik səviyyəsi təhsilin məzmununa, tədris materialına, Azərbaycan ordusunun tarixi nailiyyətlərinə dair mənbələr verməklə sıx şəkildə bağlıdır.

5. Tədris fənlərinin strukturunu, dərslik və proqramların məzmununu Azərbaycan ordusunun tarixi nailiyyətlərinə dair materiallarla daha da zənginləşdirməyin müasir cəmiyyətimizin hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı tələblərinə uyğunluğu və bu istiqamətdə aparılan işlər faydalı cəmiyyət üzvü, hərbi bilik və bacarıqlı əsl vətəndaş yetişdirilməsinə təsiri göstərəcəkdir.

Tədqiqat üç mərhələdə aparılmışdır.

Tədqiqatın birinci mərhələsində axtarıcılıq hazırlıq işləri görülmüşdür. Tədqiqatın mövzusu ilə bağlı fəlsəfi, pedaqoji, sosial-pedaqoji ədəbiyyat toplanıb, mövzu baxımından təhlil edilmiş, məktəblərin imkanlarının meyarları müəyyənləşdirilmiş, bu meyara

uyğun olaraq diaqnostik material işlənib hazırlanmışdır. Bu mərhələdə normativ hüquqi sənədlərin və elmi ədəbiyyatın təhlili, həmçinin orta məktəblərdə mövzu ilə bağlı müşahidə, anketləşdirmə, müsahibə metodlarından istifadə olunmuşdur.

Tədqiqatın ikinci mərhələsində problem üzrə ədəbiyyat öyrənilməsi davam etdirilmiş, Azərbaycan ordusunun qazandığı nailiyyətlər vasitəsilə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması kompleks pedaqoji şərtləri müəyyənləşdirilmişdir. Bu mərhələnin gedişində təlim prosesində və dərsdənkənar məşğələlər zamanı ordumuzun tarixi nailiyyətlərindən istifadə praktik olaraq tətbiq edilmişdir, nəticələr qeydə alınmışdır.

Üçüncü mərhələdə söhbət, anketləşdirmə, müşahidə, nəticələrin ümumiləşdirilməsi və nəticələri, nəzəri və praktik yekunların formalaşdırılması, üsullarından istifadə edilərək fərziyənin müddəaları möhkəmləndirilmiºdir. Bu mərhələdə tədqiqat nəticələri ümumiləşdirilmiş, sistemə salınmışdır.

**Tədqiqatın elmi yeniliyi:**

– Məktəblilərin Azərbaycan ordusunun qazandığı nailiyyətlər vasitəsi ilə hərbi vətənpərvərlik tərbiyəsi işinin nəzəri və pedaqoji əsasları işlənib əsaslandırılmışdır;

– Azərbaycan ordusunun qazandığı nailiyyətlər vasitəsi ilə məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işinin sistemi dəqiqləşdirilmiş, tətbiqi əsaslandırılmışdır.

– Azərbaycan ordusunun düşmən üzərində qazandığı qələbələr Ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin siyasi və sərkərdəlik qabiliyyəti nümunələri mövzu baxımından diqqətə çatdırılmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti:** Mövzunun aktuallığı və zəruriliyi, əhəmiyyəti nəzərə alınmaqla müəyyənləşdirilmişdir. Tədqiqat işində əsas elmi məqsəd məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin imkan və yollarını öyrənmək tədris üçün əhəmiyyətlidir. Dissertasiyada irəli sürülən fikirlər, elmi ideyalar, hərbi bilik və bacarıqlar hərbi vətənpərvərlik tərbiyəsi nəzəryəsini zənginləşdirəcəkdir. Tədqiqat materiallarından pedaqoji ədəbiyyatın,

dərslik və dərs vəsaitlərinin hazırlanmasında və yetişən nəslin istifadəsinə verilməsi məqsədəuyğun hesab oluna bilər.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondadır ki, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin məzmunundan və onun nəticələrindən məktəb müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

– Əsərdəki nəzəri müddəaların tətbiqi və nəticələr, məktəblilərin təlim-tərbiyəsinin uğurlu olmasına kömək edəcək;

– Məktəblilərlə aparılan hərbi vətənpərvərlik tərbiyəsi işini səmərəli qurmaqda, onları Azərbaycan ordusunun qazandığı tarixi nailiyyətlər vasitəsilə tərbiyə etməklə gənclərin çağırışaqədərki hazırlıq, tarix müəllimlərinə, pedaqoji kollektivə, habelə valideyinlərə əlavə kömək göstərməyə imkan verəcəkdir;

– Müəllimlərin yeni metodikalar əldə etmələrinə və məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işində ordumuzun qazandığı nailiyyətlərdən bəhrələnməyə səbəb olacaqdır.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqat zamanı verilən tövsiyələr və onların reallaşdırılması, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi imkanlarının aktuallaşdırılmasının metodologiyasınıın işlənilməsi məktəb kollektivimizin istifadəsində faydalı olar.

Tədqiqatın nətəcələrindən məktəblilər ilə bağlı proqram və dərsliklərin yazılmasında, təlimin səmərəli təşkilində, kadr hazırlığında, gələcək tədqiqatlarda istifadə olunması məqsədəuyğundur.

Tədqiqatın nəticələri müəllifin bir sıra respublika və beynəlxalq konfranslarda etdiyi çıxışlarda Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nəşrlərdə çap etdirdiyi 9 elmi məqalədə (o cümlədən 3-ü xaricdə) və 11 məruzə tezisində (o cümlədən 3-ü xaricdə) öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya 2018-2024-cü illərdə Naxıvan Dövlət Universitetinin “Pedaqogika və psixologiya” kafedrasında yerinə yetrilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasya giriş, yeddi paraqrafı əhatə edən

iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.“Giriş” 12 səhifə 20.421 - işarə, I fəsil 45 səhifə - 85.194 işarə, II fəsil 65 səhifə -123.318 işarə, “Nəticə” 3 səhifə 5.600 - istifadə edilmiş ədəbiyyat 12 səhifə -17.979 işarə. Ümumi həcmi 136 səhifə- 249.606 işarə.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“Giriş”** də mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın obyekti, predmeti, məqsədi və vəzifələri göstərilmiş, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılmış əsas müddəalar verilmişdir.

Dissertasiyanın “**Hərbi vətənpərvərlik tərbiyəsinin mahiyyəti və müasir xüsusiyyətləri”** adlı I fəsli 3 paraqrafdan ibarətdir. 1.1. **“Problemin qoyuluşu və tədqiqi tarixindən”** paraqrafında göstərilir ki, elmi pedaqoji ədəbiyyatda hərbi vətənpərvərlik haqqında müəyyən tədqiqlər aparılmışdır. Qeyd olunmuşdur ki, problemlə bağlı bir sıra elmi məqalələr dərc edilmiş, kitablar, dərs vəsaitləri, monoqrafik əsərlər və dissertasiyalar hazırlanmışdır. Lakin yaşadığımız dövr tarixin elə bir mərhələsidir ki, böyüyən nəsillərin hərbi vətyənpərvərlik tərbiyəsinə diqqəti daha da artmış, bu məsələ günümüzün ən vacib, aktual problemlərindən birinə çevrilmişdir.

Azərbaycanda hərbi vətənpərvərlik tərbiyəsinə dair ciddi tədqiqlərə nəzər saldıqda məlum olur ki, həmin problemə keçən əsrin 60-cı illərindən başlanılmışdır və o, dövrdən ilkin elmi araşdırmalar aparılmışdır.

Gənc nəslin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinə həsr olunmuş ilk və çox dəyərli tədqiqlər prof. Xəlil Fətəliyevə məxsusdur. Müasir dövrümüz də isə tanınmış pedaqod və alimlərimizdən olan M.H.Ağayev, J.Ə.Mustafayeva, F.A.Əliyev, M.Ə.Nəsurullayev, Ə.Ş.Həşimov, İ.İ.Əliyev, N.M.Kazımov və başqaları vətənpərvərlik və hərbi vətənpərvərlik tərbiyəsi haqqında qazandıqları bilik və bacarıqları Azərbaycan yeni və gənc nəslinə öyrətməklə nailiyyətlər əldə etmişlər.

Açıq etiraf etmək lazımdır ki, uzun illər bu sahədə ardıcıl və mütəşəkkil təlim və tərbiyə işi aparılmamış, işdə laqeydlik, biganəlik

özünü göstərmişdir. 1993-cü ildə yenidən hakimiyyətə gələn Ümumilli liderimiz Heydər Əlirza oğlu Əliyev bu sahədəki durğunluğu və nöqsanları aradan qaldırılmasına ciddi diqqət yetirərək lazımi tədbirlər görmüşdür.

Ümumilli liderimiz Heydər Əliyev Azərbaycan məktəblisini Azərbaycanın milli sərvəti və Azərbaycan xalqının gələcəyi adlandırmışdır. Azərbaycan Gənclərinin Birinci Respublika Formunda məktəblilərin vətənpərvərlik tərbiyəsindən, onların qarşısında duran vəzifələrdən danışarkən qeyd etmişdir ki, *"Hər bir Azərbaycan məktəblisi özünü gələcəkdə orduda xidmət etməyə hazırlamalıdır. Gənclərin orduda xidmət etməsi üçün hərbi vətənpərvərlik ruhunda tərbiyələndirilməsi bu gün orta ümumtəhsil məktəblərinin, gənclər təşkilatının ümumilikdə vəzifəsinə çevrilməlidir."* [3]

X.Q.Fətəliyev "Orta ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik tərbiyəsinin nəzəriyəsi və təcrübəsi" əsərində məktəblilərə hərbi vətənpərvərlik tərbiyəsinin pedaqoji, fəlsəfi, psixoloji tərəflərini izah etməklə bərabər, hərbi vətənpərvərlik tərbiyəsinin məqsəd və vəzifələrinə, prinsip və metodlarına da toxunub.

İ.B.Əsgərov "Hərbi vətənpərvərlik tərbiyəsinin əsasları" kitabında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi məsələlərinə toxunmuş, müasir dövrümüzdə Ümummilli lider Heydər Əliyevin bu sahədəki xidmətlərini əsas olaraq göstərmişdir.

M.Ə.Nəsurullayev "Bədən tərbiyəsi və ibtidai hərbi hazırlıq dərslərində hərbi vətənpərvərlik tərbiyəsi" əsərində hərbi vətənpərvərlik tərbiyəsi ilə fiziki tərbiyənin qarşılıqlı əlaqəsi tərəflərindən bəhs etmişdir.

F.A.Əliyev "Müasir mərhələdə vətənpərvərlik tərbiyəsi" metodik vəsaitində müasir tariximizdə məktəblilərə vətənpərvərlik hissinin aşılanması, öyrədilməsi məsələlərini ortaya çıxara bilmişdir.

M.Ş.Salamova "Şagirdlərin vətənpərvərlik tərbiyyəsində Milli qəhrəmanlar və Qarabağ şəhidlərinin nümunəsindən istifadə"

---

[3] Əliyev, H.Ə. Hər bir Azərbaycan gənci müstəqil dövlətimizin fəal qurucusu olmalıdır. Gənclərin I forumunda çıxışı, //"Xalq" qəzeti, – Bakı,– 1996 6 fevral. s.12.

dissertasiya işində Azərbaycan Milli Qəhrəmanlarının şagirdlərin vətənpərvərlik tərbiyəsi işində rolundan danışmışdır.

Bütün bunları məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işində əsaslı təsir vasitəsi hesab etmək olar.

I fəslin **"Hərbi vətənpərvərlik tərbiyəsinin elmi əsasları, prinsip və metodları"** adlanan ikinci paraqrafında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin elmi əsasları, prinsip və metodları əsas olaraq aşağıdakı kimi öz əksini tapmışdır.

Hərbi vətənpərvərlik tərbiyəsinin elmi əsasları:

- Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi hisslərinin inkişafı onlarda
gələcəyə baxış tərzinin böyüməsinə, müstəqil ölkəmizin hər vasitə ilə müdafiəsini təmin etməsinə;

– Məktəblilərdə müasir dövrümüzün tələbləri əsasında əməksevər, yurdsevər, millətpərvər xüsusiyyətlərin əsasını qoymaqla, gələcəkdə təhsil müəssisəsində müəllim kadr ehtiyatının inkişaf etdirilməsi**;**

–Ölkəsininin suverenliyini, ərazi bütövlüyünü, və Silahlı Qüvvələrin nailiyyətlərini qoruyan, vətənpərvər vətəndaşlar tərbiyə etməsinə;

Vətənpərvərlik tərbiyəsinin nəzəri və əməli əsasları, ilk növbədə, müstəqilliyimizin qorunması uğrunda klassiklərimizin vətənpərvərlik və vətənin müdafiəsi ideyalarına istinad edir. Xalqımızın böyük oğlu ulu öndər Heydər Əliyev demişdir: *"Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, vətənə, torpağa, millətə sədaqət, vətən yolunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir. Hər bir vətənpərvər adam millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin daimi, dönməz olması üçün səy göstərməlidir."*[4]

Hərbi vətənpərvərlik tərbiyəsinin prinsiplərindən danışmaq istərkən, ilk növbədə, onun təşkilinin hansı vasitələr əsasında formalaşdığına diqqət yetirmək olar:

–Millilik və ümumbəşərliyin vəhdəti prinsipi;

---

[4] Əliyev, H.Ə. Müstəqillik yollarında. [3 cilddə]. – Bakı: Azərbaycan, – c. 2. – 1997. – 446 s.

– Hərbi vətənpərvərlik üzrə tarixi nailiyyətlərə istinad etmək pirinsipi;
– Hərbi vətənpərvərvərlik tərbiyəsində ardıcıllıq və fasiləsizlik prinsipi;
– Konkretlilik prinsipi;
– Məqsədyönlülük prinsipi;
– Hərbi tərbiyə prinsipi:

Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində, adi təlim-tərbiyə prosesindən fərqli olaraq nümunə göstərmək, məşq etdirmək, həvəsləndirmək, vadar etmək, inandırmaq, nümunə gətirmək kimi növ və vastələr olan metodlar tətbiq olunur.

Hərbi vətənpərvərlik tərbiyəsinin adlarını çəkdiyimiz metodlar vasitəsilə məktəblilərə Azərbaycan ordusuna sədəaqət hissi, torpaqlarımızı xarici qəsbkarlardan müdafiə, qələbə əzmi, ordumuzun nailiyyətlərini tanıtma kimi keyfiyyətlərin öyrədilməsi tətbiq olunur. Müstəqil ölkəmizdə müasir məktəblərimizin savadlı pedaqoji kollektivlərinin təcrübəsi sayəsində şagirdlərə aşılanan hərbi vətənpərvərlik tərbiyəsi, vətənpərvərlik keyfiyyətləri onları gələcəkdə ordu sıralarında qüsursuz xidmət etmələrinə yönəldilir. Eyni zamanda hərbi vətənpərvərlik tərbiyəsinin elmi əsasları, metod və prinsipləri məktəblilərə bu imkanlardan, necə və hansı səviyyədə istifadə etməyə imkan verir.

I fəslin **“Müasir dövrdə hərbi vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti və xüsusiyyətləri”** adlanan üçüncü paraqrafında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində müstəqil Azərbaycan dövlətinin müasir dörümüzdə qazandığı hərbi nailiyyətlərin əhəmiyyətindən, yerindən bəhs etmişdir. Bu məktəblilərimiz böyük Azərbaycan xalqının zəngin tarixi nailiyyətləri və döyüş ənənələrinə, qəhrəmanlıqlarla dolu tarixinə, ədəbi bədii sərvətinə əsasllanaraq, istinad etmişlər.

Azərbaycan ədəbiyyatında, tarixində vətən eşqi ilə yaşayıb-yaradan Nizami Gəncəvi, Mirzə Fətəli Axundov, Səməd Vurğun, Abbas Səhət, Məmməd Araz kimi söz ustaları əldə silah çapışan Babək, Koroğlu kimi xalq qəhrəmanları və başqaları vətənə olan sonsuz məhəbbət və ehtiramlarını qələm sənəti ilə qəhrəmanlığın əzəmətli qüdrəti ilə bildirmişlər.

XXI - əsrin yadda qalan və yaddaşlardan silinməyən 44 günlük Vətən müharibəsi, müasir Azərbaycan vətənpərvərliyi, babalarımızın vətənpərvərliyinin sadəcə təkrarı olmayıb, yeni keyfiyyət və əlamətlərə malik olan yüksək tipli vətənpərvərlikdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə keçrilən təntənəli hərbi paradda" demişdir: *"Azərbaycan xalqı birliyinin əməl və mübarizliyinin mahiyyət və ictimai əhəmiyyətini məktəbilərə izah edib öyrətmək, uşaqları müharibə iştirakçılarının ruhunda tərbiyə etmək, dövlətə sədaqətli, düşmənə qarşı barışmazlıq ruhunda böyütmək lazımdır."*[5]

Müasir dövrümüzdə Azərbaycan ordusunun tarixi nailiyyəti olan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qazanılan 2016-ci il Aprel döyüşləri, 2020-ci il Tovuz döyüşləri, 44 günlük Vətən müharibəsinin uğur və zəfərləri məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinə təsir edən, formalaşdıran ən yaxşı nümunədir.

Dissertasiyanın **"Məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin səmərəli yolları"**adlı II fəsli 4 paraqrafdan ibarətdir. Fəslin **"Heydər Əliyev Azərbaycanda müasir ordu quruculuğunun banisidir"** adlı birinci paraqrafında göstərilir ki, ulu öndər Heydər Əliyev Azərbaycanda ordu quruculuğunun əsasını hələ XX əsrin 70-ci illərindən qoymuş, müstəqillik illərində isə dünyanın ən müasir ordusuna çevrilməsində əvəz olunmaz xidmətinin olması mövzumuzun  əsasını təşkil dir.

1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə respublikanın bütün sahələrində olduğu kimi hərbi-təşkilati sahədə də yeniləşmənin başlanğıcı qoyuldu.

Ulu öndər Heydər Əliyevin hərbi-təşkilati işlər sahəsində uğurlu adımlardan biridə, 1971-ci ildə C.Naxçıvanski adına hərb təmayüllü internat məktəbinin əsasını qoyması oldu.

---

5 Əliyev, İ.H. "Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyi münasibəti ilə keçrilən təntənəli hərbi paradda nitqi" // Respublika. "Azərbaycan" qəzeti, –2018, 26 iyun, – s.2

Hazırki dövrdə Azərbaycan ordusunun yüksək səviyyədə olması Heydər Əliyevin Azərbaycan hərb sahəsində gördüyü işlərin nə qədər əhəmiyyətə malik olduğunu sübut etdi.

Dissertasiyada ulu öndər Heydər Əliyevin Azərbaycanda birinci dəfə və ikinci dəfə hakimiyyətə gəlməsi, eyni zamanda Naxçıvan Muxtar Respublikasındakı hakimiyyəti illərində ordu quruculuğuna verdiyi töhvə, hərbi potensialın artırılması, hərbi vətənpərvərlik tərbiyəsi sahəsindəki gördüyü işlər və s. təhlil edilib, ümumiləşdirilmiş şəkildə öz əksini tapmışdır.

*"Zaman çox keçmədi Ulu öndər Heydər Əliyev siyasətini Azərbaycan Respublikasında davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ordu quruculuğunun inkişafına xüsusi fikir verir, bu sahədə lazımı addımların atmasını özünə borc bilirdi. Qarşıya qoyulan məqsədlərdən ən başlıcası işğal altında olan torpaqların düşməndən azad edilməsi və bir milyona yaxın məcburi köçkünlərimizi öz yurd yuvasına qaytarmasını təmin etmək idi".*[6]

Hər zaman, hər yerdə xüsusi ilə gənclərlə, gənc çağırışçılarla görüşüb öz töhvəsini verməklə onları orduya həvəsləndirir, Azərbaycan dövlətini, millətini, xalqını sevməyə, ərazi bütövlüyünün qorunub saxlanmasına çağırış edirdi. Ulu öndər Heydər Əliyev siyasətini davam etdrən Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu siyasəti, gənclərlə tez-tez görüşü müasir dövrümüzdə xalq, ordu, lider birliyinin simvoluna çevrilməsi, ordumuzun şanlı zəfəri, qələbə və uğurları, çəkilən zəhmət, atılan uğurlu addımlar dissertasiya işində nümunə olaraq qeyd edilmişdir.

Fəslin **"Hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin pedaqoji imkanları"** adlı ikinci paraqrafında məktəblilərə hərbi vətənpərvərlik tərbiyəsinin aşılanmasının pedaqoji imkanları müəyyənləşdirilərək təsnif olunmuşdur. Hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusunun nailiyyətlərindən istifadənin pedaqoji imkanlarının

---

[6] Allahverdiyev, P.R. Müstəqillik illərində Azərbaycan ordusunun qazandığı nailiyyətlərin məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində rolu // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər, –2024. cild 91, № 1, –s. 99-103

öyrənilməsi ilə əlaqədar olaraq şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusu haqqında xeyli şeirlər, əsərlər, hekayələr və oçerklər verilmişdir. Məktəblilər "Azərbaycan tarixi", "Zəfər tarixi", "Ədəbiyyat", "Çağırışaqədərki hazırlıq" fənn müəllimlərinin vasitəsilə vətən, xalq, Azərbaycanın tarixi qəhrəmanları, Azərbaycan ordusu haqqında xeyli biliyə yiyələnirlər.

Dissertasiya işində məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində pedaqoji vasitə hesab etdiyimiz müəllim-şagird əməkdaşlığına diqqət yetirilmiş bir sıra mühüm cəhətlər təhlil olunmuşdur. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

1. Müəllim Azərbaycan ordusunun nailiyyətlərini, qələbə və uğurlarını bilməli, çıxışlarında yüksək pedaqoji texnikaya yiyələnməli, bu sahədə özünü inkişafa diqqət yetirməlidir;

2. Müəllimin, bu prosesdə şagirdlərdə öz güclərinə inam yarada bilmə qabiliyyətinə malik olması. Müəllim şagirdlərə inandığını, tapşırıqların öhtəsindən gələ biləcəklərinə inandığını onlara çatdırmağı və özünün hərəkət və davranışında hiss etdirməyi bacarmalıdır. Şagirdlərə Azərbaycan ordusunun nailiyyətlərində inamın yerini və rolunu müəyyən misallar və sitatlar gətirməklə öyrətmə metodikasını;

3. Müəllimin hər bir şagirdin hərbi bilik, bacarıq və qabiliyyətini düzgün müəyyənləşdirə bilməsi və onları nəzərə alması. Müəllimdən geniş müşahidəçilik qabiliyyəti, pedaqoji diaqnostikanın metodlarından bacarıqla faydalana bilmə qabiliyyəti tələb edən bu məsələ pedaqoji biliklərin verilməsində mühüm önəm daşıyır;

4. Müəllimin şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində psixi xüsusiyyətlərinə dərindən bələd olmaqla psixoloji maneələrin aradan qaldırılması qabiliyyətinə malik olması.

Fəslin **"Təlim prosesi zamanı şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan ordusuna dair materiallardan istifadə yolları"** adlı üçüncü paraqrafında qeyd olunur ki, məktəblərdə təşkil olunan təlim proseslərində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması işinin istiqamətlərindən biri də məktəblilərin Qarabağ torpaqları uğrunda gedən döyüşlərə sədaqət, inam və ehtiram ruhunda tərbiyə edəcək tədbirlərdən ibarətdir. Bu cəhətdən də məktəblilərin hərbi

vətənpərvərlik tərbiyəsinin gücləndirmək tövsiyə edilmişdir. Azərbaycanda müasir ordu quruculuğunun banisi olan Heydər Əliyevin tövsiyələrini rəhbər tutaraq inkişaf etməkdə olan demokratik cəmiyyətimizin indiki mərhələsində məktəblilərin müasir tərbiyəsində onların Qarabağ döyüşləri nailiyyətlərini qorumağa hazır olmaq vəzifəsini irəli sürmüşdür. Xüsusi ilə məktəbliləri Azərbaycan ordusunun nailiyyətləri əsasında tərbiyələndirmək, onlarda müstəqil Azərbaycan vətəninə məhəbbət, silaha sarılıb Qarabağ döyüşləri nailiyyətlərini müdafiə etməyə daim hazır olmaq hissini inkişaf etdirmək əsas vəzifəsi hesab olunur.

Təlim prosesi zamanı şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması, inkişafı yollarından olan hərbiçilərlə məktəblilərin dostluğunun əlaqələndirilməsi məsələləri geniş vüsət almışdır.

Təlim zamanı bildirilib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyəti illərində və Azərbaycan Respublikasının Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan hərb tarixində, ordu quruculuğundakı nailiyyətləri və odumuzun müvəffəqiyətlərini ümumiləşdirərək şagirdlərin təlim prosesində hərbi vətənpərvərlik tərbiyəsinə yiyələnməsidə istifadə edilmişdir.

**"Dərsdənkənar məşğələlər zamanı hərbi vətənpərvərlik tərbiyəsinin təşkili yolları"** adlanan dördüncü paraqrafda tədqiqat planına uyğun olaraq şagirdlərdə hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması üzrə işin sistemini yaradarkən biz təlim fənlərilə yanaşı dərsdənkənar tədbirlərin bu sahədəki yerini, rolunu və əhəmiyyətini də müəyyənləşdirdik. Çünki dərsdənkənar tədbirlər vasitəsilə şagirdlərə Azərbaycan ordusunun nailiyyətlərinin formalarını təhlil etməklə hərbi vətənpərvərlik tərbiyəsinin orta təhsil məktəblərində mövcud müşahidəsini etmiş olduq. Hərbi vətənpərvərlik tərbiyəvi proses kimi dərsdənkənar tədbirlər məqsədinə və məzmununa görə müxtəlif növ formalara malikdir. Göstərilən bütün bu cəhətlər tədbirin məna və məqsədi, məzmun istiqaməti forması şagirdlərin marağına, yaşına, hər hazırlıq səviyyəsinə uyğun qurulmuşdur. Hər hansı bir dərsdənkənar tədbir formasının bütün yaş qruplarında səmərə verəcəyinə, təbii ki, zəmanət vermək olmaz. Elə tədbir formaları var ki, həmin forma

yalnız yuxarı siniflərdə fayda verə bilər. Deməli ibtidai sinif müəllimi təlim prosesinin verdiyi imkanlardan əlavə şagirdlərin mənəviyyatını, davranış və hərəkətini, mədəni səviyyəsini formalaşdırmaq məqsədilə elə dərsdənkənar tədbir formalarına müraciət etməlidir ki, onlar uşaqların tərbiyəsində yüksək səmərə versin.

*"Müharibə iştirakçısı, veteranlarla, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu, müharibədən yeni gəlmiş (qazi olmuş) hərbiçilər ilə görüşlərin təşkili; Şəhid olmuş hərbi qulluqçuların ailələri ilə maraqlı söhbətlərin aparılması, şəhidlər xiyabanına ziyarətin təşkil olunması, abadlaşdırılması kimi işlərin həyata keçrilməsi və s."*[7]

Dissertasiya işinin bu paraqrafında məktəb təcrübəsinə üstünlük verməklə orta təhsil müəssisələrində şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin keyfiyyəti yüksəldilmişdir. Müşahidə və təhlilllər aparılmaqla, sorğu-sual əsasında öyrənilən biliyin şagirdlərin hərbi vətənpərvərlik ruhuna fayda verəcəyini qarşımıza məqsəd qoyduq.

**Dissertasiya işinin "Nəticə" hissəsində tədqiqatın yekunları aşağıdakı şəkildə ümumiləşdirilmiş və təkliflər irəli sürülmüşdür.**

1.Problemə dair elmi pedaqoji ədəbiyyatın, tədqiqat əsərlərinin araşdırılması və təhlili göstərir ki, şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsi ölkəmizdə postsovet məkanında müəyyən dərəcədə öyrənilmişdi. Bu tədqiqatlar, əsasən, orta təhsil müəssisələrində hərbi vətənpərvərlik tərbiyəsinin nəzəriyyə və təcrübəsinə, ayrı-ayrı fənlərin tədrisi prosesində hərbi vətənpərvərlik tərbiyəsinə, hərbi vətənpərvərlik tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə məsələlərə həsr edilmişdir.

Dövrümüzün tələbi və məktəb təcrübəsinin də öyrənilməsi göstərdi ki, şagirdlərin hərbi vətənpərvərlik tərbiyəsinin daha uğurlu təşkilində Azərbaycan Ordusunun tarixi nailiyyətlərindən istifadə probleminin araşdırılması məqsədə müvafiqdir.

2. Hərbi vətənpərvərlik tərbiyəsinin elmə əsaslarına şagirdlərin elmi dünyagörüşünün formalaşmasın, humanist və demokratik ruhlu, vətən naminə fədakarlığa hazır olan, ölkənin müdafiəsi üçün hərbi

---

[7]Allahverdiyev, P.R. Orta ümumtəhsil müəssisələrində hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyası // – Türkiyə: Akademik Tarih ve Düşünce Dergis. –2023. 10 (6), Cilt: 10 Sayı, –s. 2782-2789.

bacarıqlara yiyələnməyə can atan gənclər yetişdirilməsi işini elmi-nəzəri baxımdan düzgün qurmaq daxildir.

3. Tədqiqat nəticəsində müəyyən edildi ki, hərbi vətənpərvərlik prinsiplərinə daxildir: millilik və bəşəriyyətin ədalətli prinsipi; hərbi vətənpərvərlik üzrə tarixi təcrübələrə istinad etmək prinsipi; ardıcıllıq və fasiləsizlik prinsipi; məqsəd yönlülük prinsipi; konkretlik prinsipi.

4. Tədqiqat nəticəsində müəyyən edildi ki, ordumuzun tarixi nailiyyətlərinin təkcə dərsliklərdən, müxtəlif tarixi kitab və salnamələrdən deyil, konkret real həyati faktlardan götürülməsi; Vətən uğrunda fədakarlık göstərən qəhrəmanların şagirdlərin müasirləri olaraq tanınması; ordu qurucularının, hərbi kadrların, qaziləri və şəhid ailələrinin üzvlərinin şagirdlərlə bilavasitə görüşləri və s. müasir dövrdə hərbi vətənpərvərlik tərbiyəsi təşkilinin mühüm xüsusiyyətləridir.

5. Tədqiqat prosesində sübut olundu ki, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsinin formalaşdırılması işində Ümummilli lider Heydər Əliyevin müasir Azərbaycan Ordu quruculuğundakı misilsiz xidmətləri barədə əqidə yaradılmasının müstəsna rolu vardır. Şagirdlərin şüurlu surətdə dərk edirlər ki, ordumuzun qazandığı zəfərlərin əsasında, həmdə Heydər Əliyevin ordu quruculuğu siyasətinin hələ sovet hakimiyyəti illərində ilkini yaratdığı, müstəqillik illərində strategiya və taktikasını işləyib hazırladığı ordu siyasəti durur.

6. Hərbi vətənpərvərlik tərbiyəsində Azərbaycan Ordusunun nailiyyətlərindən istifadənin pedaqoji imkanları kimi aşağıdakılar göstərilə bilər: təlim prosesində ordumuzun nailiyyətlərinə dair biliklər öyrədilməsi; bu məqsədlə tədris proqramları, dərslik və dərs vəsaitlərinə müvafiq materialın daxil edilməsi, şagirdlərin təhsil aldığı məktəb, oxuduğu sinif, oturduğu partaların müqəddəs yadigarlar olduğu barədə təbliğat və təşviqat; hərbi kadrlarla, döyüş qəhrəmanları ilə keçirilən görüşlər; hərbi komissarlıqlarla birgə işin düzgün təşkili və s.

Beləliklə, bütün bunları əsas tutaraq, aşağıdakı təkliflərin nəzərə alınmasını vacib bilirik:

1. Məktəblilərin tədris proqramları və dərslikləri tərtib edilərkən Azərbaycan ordusunun tarixi nailiyyətlərinin öyrənilməsinə

layiqli yer verilməli, tarixi döyüş ənənələri, ədəbi-bədii sərvəti, tarixi salnaməsi ilə zənginləşdirilərək məktəblilərin belə bir məzmun istiqaməti təmin olunmalıdır;

2. Məktəblilərin Azərbaycan ordusunun tarixi nailiyyətləri əasında hərbi vətənpərvərlik tərbiyəsinin inkişafına, həsr edilmiş nəşrlər, vasitələr hazırlanıb pedaqoji kollektivin istifadəsinə verməlidir;

3. Ordumuzun tarixi nailiyyətləri əsasında məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsi işini geniş və əhatəli yaymaq məqsədilə məktəbliləri kütləvi informasiya vastələri televiziya, radio verlilişlərinin aparılmasına diqqətlərini cəmləşdirmək, mətbuat orqanlarında materiallarının nəşrinə şərait yaradılmalıdır. Bütün bunlar pedaqoji kollektivlərin, xüsusilə tarix və çağrışaqədərki hazırlıq müəllimlərinin, valideynlərin, uşaq gənclər təşkilatının bu işə diqqətlərinin artırılmasını tələb edir.

4. Video çarxlar, hərbi-idman oyunları, döyüş şöhrəti muzeylərinə ekskursiyalar, Şəhidlər Xiyabanına ziyarət, müharibə veteranları və müharibədən yeni gəlmiş qəhrəmanlarla, nümunəvi əsgərlərlə söhbət və s. bu kimi dərsdənkənar tədbirlərin təşkili müntəzəm olmalıdır.

5.Məktəblilərin Azərbaycan ordusunun tarixi nailiyyətlərindən istifadə etməklə hərbi vətənpərvərlik tərbiyəsinin, təşkilində aşağıda adları çəkilən dərsdənkənar tədbirlər yüksək səmərə verə bilər:

– “Zəfər günü” münasibəti ilə ordu quruculuğu, tarixi nailiyyətlər, vətənpərvərlik mövzularında çıxışların, müzakirələrin təşkili;

– Bayramlar (Silahlı Qüvvələrin yaranma günü, Qələbə bayramı);

– Tarixi nailiyyətlərin il dönümü (Aprel döyüşləri, 44 günlük Vətən müharibəsi);

- Ekskursiya və yürüşlər (Zəfər parkı, Hərbi qənimətlər parkı);

**Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Məktəblərdə hərbi vətənpərvərlik tərbiyəsinin təşkili, vəzifələri və prinsiplər // – Naxçıvan: Naxçıvan Dövlət Universiteti,

Elmi əsərlər, Humanitar elmlər seriyası, Qeyrət, – 2020. №1(102) II cilid, – s. 21-24

2. Məktəblərdə hərb vətənpərvərlik tərbiyəsinin inkişaf etdirilməsinin müasir üsul və vasitələri // Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu. Ümumi təhsildə kurikulum islahatları. Nəticələr və perspektivlər, "Məktəb", – 2020 21 may, – s. 269-271

3.Müasir dövrdə hərbi vətənpərvərlik tərbiyəsinin əhəmiyyəti və xüsusiyyətləri // – Naxçıvan: Naxçıvan Universiteti, Elmi əsərlər, "Nuh" –2020. №2(17), – s. 251-256

4. Hərbi vətənpərvərlik tərbiyəsinn mahiyyəti və müsir xüsusiyyətləri // – Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, Elmi əsərlər, "Məktəb", – 2020. №1(59), – s.47-49

5. Military patriotic education as significant part of civilian education // – Ukrayna: İscience. Актуальные научные исследования в современном мире, Журнал. Секция: Педагогика. – 2020. Выпуск 5 (73).Частъ 7, – с.6-10

6. Azərbaycan Ordusunun düşmən üzərində tarixi zəfər çalmasında hərbi vətənpərvərlik tərbiyəsinin rolu // Mingəçevir: Mingəçevir Dövlət Universiteti, Davamlı inkişaf strategiyası: Qlobal trendlər, milli təcrübələr və yeni hədəflər. – 2021 10-11 dekabr. № 1 cilid, – s. 548-549

7.Ulu öndər Heydər Əliyev və məktəbli gənclərin hərbi vətənpərvərlik tərbiyəsi // –Naxçıvan: Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər, Humanitar elmlər seriyası. "Qeyrət", –2022, №5(118), – s.121-123

8. Orta və ümumtəhsil məktəblərində hərbi vətənpərvərlik tərbiyəsinin inkişaf yolları // Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu, Müasir mərhələdə müəllim hazırlığının aktual məsələləri, "Uğurlar və çağırışlar", "Məktəb" – 2022 15-16 dekabr. – s. 237-239

9. Organization forms of military patriotic education in secondary schools // – Özbəkistan: Buxoro Davlat Universiteti, İlmiy Axboroti. 7/2023. – s. 247-251

10. Orta ümumtəhsil müəssisələrində hərbi vətənpərvərlik tərbiyəsinin təşkili texnologiyası // – Türkiyə: Akademik Tarih ve Düşünce Dergis. – 2023. 10 (6), Cilt: 10 Sayı, – s. 2782-2789.

11. Yeni və gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində təhsil

müəssisələrinin rolu // – Bakı: AEM, Qədim diyar, Beynəlxalq onlayn elmi jurnal. – 2023, 1.028 Cild: 5 Sayı:12, – s. 47-52

12. Müstəqil Azərbaycan Silahlı Qüvvələrinin ordu quruculuğu və hərbi vətənpərvərlik tərbiyəsi // Sumqayıt: Sumqayıt Dövlət Universiteti. Azərbaycanda Dövlət müstəqilliyinin bərpası və ölkənin siyasi, sosial-iqtisad, mədəni inkişafı. –2023. №1, –s.36-37

13. Yuxarı sinif şagirdlərinin hərbi vətənpərvərlik tərbiyəsində dərsdənkənar tədbirlərin rolu // – Bakı: Bakı Elm-Təhsil Mərkəzi, Pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik jurnal. – 2023. №-105-p, – s. 149-155

14. Genclerin ordudakı konumunda Milli Mider Haydar Aliyevin rolu // Van TRB2 uluslararasi eğitim bilimleri kongresi. “100 Yılda Eğitim” Van Yüzüncü Yıl. University Türkiyə. – 2023. – s.141-152

15. Qarabağ torpaqlarinin işxaldan azad edilməsi keçmişimizdən bu günümüzə // İstanbul: VII. İnternational halich congress on multidisciplinary scientific research January.Türkiyə. – 2024. – s.750-756

16.Müstəqillik illərində Azərbaycan ordusunun qazandığı nailiyyətlərin məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsində rolu // – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, Elmi əsərlər, – 2024. cild 91, № 1, – s. 99-103

17. Allahverdiyev, P.R. Muxtariyyət dövründə Naxçıvan Muxtar Respublikasında hərbi vətənpərvərlik tərbiyəsinin təşkilinin bəzi məsələləri // Naxçıvan: Naxçıvan Müəllimlər İnstitutu “Naxçıvanda təhsilin muxtariyyət dövrü: Problemlər, həllər, perspektivlər” Respublika elmi konfrans. Məktəb, –2024 05 mart, – s.72-75



Dissertasiyanın müdafiəsi 25 aprel 2025-ci il tarixində saat 10⁰⁰ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ 7003, Naxçıvan Müəllimlər İnstitutu.

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında (www.nmi.edu.az) yerləşdirilmişdir.

Avtoreferat "19" mart 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.03.2025
Kağız formatı: 60x84 16\1
Həcm: 37,052
Tiraj: 100